# Xalq yazıçısı Şamaxıda dəfn olunub

**Ötən gün 81 yaşında dünyasını dəyişmiş Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Mövlud Süleymanlı Şamaxıda dəfn olunub.**



Xalq yazıçısının cənazəsi günorta saatlarında Şamaxıya gətirilib, rayonun Kərkənc kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində rayon icra hakimiyyətinin rəhbərliyi, yazıçının ailə üzvləri, qələm dostları, eləcə də ictimaiyyət nümayəndələri, jurnalistlər iştirak ediblər.

Yazıçının həyat və yaradıcılığından söhbət açılıb, ədəbiyyat və publisistikamıza xidmətləri qeyd edilib.

Sonra yazıçı vəsiyyətinə uyğun olaraq Kərkənc kənd qəbiristanlığında anasının qəbri yanında dəfn edilib.

Dəfn mərasimindən sonra Şamaxı Cümə məscidində ehsan süfrəsi təşkil olunub.

***XQ***




---

**Gözləri ekrandan ayrılmağa qoymayan kino möcüzələrlə dolu bir dünya, sirr pəncərəsidir. Bu aləmin əbədiyaşar sakinləri aktyor və aktrisalardır. Azərbaycan kinosunda mahir ana obrazları ilə tanınmış Xalq artisti Sədayə Mustafayeva da müxtəlif filmlərə çəkilmiş xoşbəxt taleli sənətkarlarımızdan olub. Yarım əsrdən çox Gəncə Dövlət Dram Teatrında çalışan istedadlı aktrisa ilə bağlı xatirələri çəkildiyi kino lentləri də canlandırır.**

Sədayə Mustafayeva sənətə1940-cı ildə – 14 yaşında Şəki teatrında qədəm qoyub. Sonra fəaliyyətini Ağdaş və Göyçay tearlarında davam etdirib. 1950-ci ildə isə Gəncə Dövlət Dram Teatrının direktoru, Xalq artisti Məhəmməd Burcəliyevin dəvəti ilə qədim şəhərin sənət məbədini seçib. Burada çeşidli obrazlar qalereyası yaradıb.

Onun kino fəaliyyəti 1966-cı ildən başlayır. Belə ki, Salam Qədirzadənin “Xəzan yarpaqları” hekayəsinin motivləri əsasında kinorejissor Eldar Quliyevin diplom işi kimi çəkdiyi 25 dəqiqəlik qısametrajlı “Biri vardı, biri yoxdu” səssiz filmində debüt edib. Sadıq Həsənzadə ilə birlikdə qoca kişi ilə qarının niskilli həya-dəqiqəlik “Mən ki gözəl deyildim” filmində Sədayə Mustafayevanın yaratdığı Gözəl arvad obrazı da maraqla izlənilən rollardandır. Müharibənin ağrılı-acılı günləri bu filmin əsas sujet xəttini təşkil edir. Həm də filmdə ailədaxili hadisələr ön planda göstərilir. Bu filmdə Gözəl arvad surəti Səidə (Xalq artisti Fidan Qasımova) ilə əlaqədə obrazın özəlliklərini ustalıqla açа bilib.

Aktrisanın maraqlı ekran obrazlarından biri də Rüstəm İbrahimbəyovun ssenarisi əsasında 1986-cı ildə kinorejissor Rasim Ocaqovun ekranlaşdırdığı 87 dəqiqəlik “Ölsəm, bağışla” bədii filmindəki Suğra xaladır. Qeyd etmək lazımdır ki, Xalq artisti Sədayə Mustafayeva